AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 13 (1473), 20 - 26 aprel 2021-ci il

Qəzet 2001-ci ildən çıxır.

## 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun D üç qrup və bir 1/4 oyununun (bundan sonra D oyunlar) Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyulun 5-dək Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində viza ala bilərlər;

1.2. oyunların təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən və müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. oyunların Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin və ya Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

2.2. Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya digər sənəd;

2.3. Bakı şəhərində keçiriləcək oyunlarda iştirak edən futbol komandalarının təmsil etdikləri ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə Avropa Futbol Assosiasiyaları Birliyinə (UEFA) və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuş həyata keçirən aviasiya şirkətlərinə oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 aprel 2021-ci il*

## 2021 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 2021 Formula 1 Azərbaycan Qran Prisinin təşkili və keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyunun 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2021 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin və bu məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2021 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 aprel 2021-ci il.*

## Cüdoçularımız Avropa çempionatını 2 bürünc medalla başa vurublar

Portuqaliyanın paytaxtı Lissabon şəhərində cüdo üzrə Avropa çempionatı keçirilib. 45 ölkədən 359 (210 kişi, 149 qadın) idmançının mübarizə apardığı yarışda Azərbaycanı 9 (8 kişi, 1 qadın) cüdoçu təmsil edib. Təmsilçilərimiz yarışı 2 bürünc medalla başa vurublar. Komandamıza medalları Kəramət Hüseynov (60 kq) və Zelim Kotsoyev (100 kq) qazandırıb.

## İdman gimnastlarımız sabah mübarizəyə başlayacaqlar

Sabah İsveçrənin Bazel şəhərində idman gimnastikası üzrə Avropa çempionatına start veriləcək. Turnirdə 38 ölkədən 280 idmançı mübarizə aparacaq. Aprelin 25-dək davam edəcək qitə çempionatında Azərbaycan idmançıları da qüvvələrini sınayacaqlar. Yarışda ölkəmizi 5 gimnast təmsil edəcək.

Millimizin heyətində Ağamurad Qəhrəmanov, İvan Tixonov, Nikita Simonov, Marina Nekrasova və Milana Minakovskaya birincilik uğrunda yarışacaq.

Qeyd edək ki, idmançılarımızdan İvan Tixonov və Marina Nekrasova artıq Tokio-2020-yə lisenziyanı təmin ediblər.

## V İslam Həmrəyliyi Oyunları təxirə salındı

2021-ci ilin sentyabr ayında Türkiyənin Konya şəhərində təşkil olunması nəzərdə tutulan V İslam Həmrəyliyi Oyunları bir il sonraya təxirə salınıb. İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) rəhbəri şahzadə Əbdüləziz bin Turki əl-Faysal Əl Səudun İdarə Heyətinin üzvləri ilə keçirdiyi videogörüşdə Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu çıxışında bildirib ki, V İslam Həmrəyliyi Oyunlarının hazırlığının tam aparılması üçün oyunların 2022-ci ilə təxirə salınması məqsədəuyğundur.

İHİF-nin İdarə Heyətinin üzvləri çıxış edərək bildiriblər ki, idmançıların və iştirakçı ölkələrin nümayəndə heyətlərinin səhhətlərinin təhlükəsizliyi çox vacibdir. Pandemiyanın inkişaf dinamikasının əvvəlcədən proqnozlaşdırılmadığı və sentyabra az vaxt qaldığı vurğulanıb. Bundan başqa pandemiya ilə əlaqədar idmançıların müxtəlif yarışlarda iştirakının azaldığı, bunun isə idmançıların fiziki hazırlığına təsir etdiyi də təəssüflə qeyd olunub. Pandemiya şəraiti ilə əlaqədar bütün üzv ölkələrin yarışda iştirak edə bilməməsi də V İslam Həmrəyliyi Oyunlarının təxirə salınması üçün göstərilən səbəblərdən biri olub.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadənin də iştirak etdiyi videogörüşdə səsvermə keçirilib. İslam Həmrəyliyi Oyunlarının hazırlığının tam aparılması üçün yarışın bir il sonra keçirilməsi qərara alınıb. İlkin olaraq yarışın avqustda keçirilməsi qərara alınsa da, dəqiq tarix gələn ilin idman təqviminə əsasən müəyyənləşəcək.

İHİF-nin rəhbəri şahzadə Əbdüləziz bin Turki əl-Faysal Əl Səud görüş iştirakçılarına 2025-ci ildə keçiriləcək İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək ölkənin seçilməsi məsələsinin də gündəlikdə olduğunu bildirib. Səsvermə nəticəsində 2025-ci ildə Kamerunun İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyi qərara alınıb.

İlk dəfə İslam Həmrəyliyi Oyunları Səudiyyə Ərəbistanında keçirilib. Qeyd edək ki, IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycan ev sahibliyi edib.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



# MOK-un sosial media təcrübəsi beynəlxalq miqyasda yüksək qiymətləndirilir

Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin (MOK) ekspertləri dünya ölkələrinin Milli Olimpiya komitələrinin sosial media və marketinq fəaliyyəti üçün vahid təlimat kitabçasının hazırlanması prosesində iştirak edəcəklər. Bu barədə razılıq Azərbaycan MOK nümayəndələri ilə Milli Olimpiya Komitələri Assosiasiyasının (ANOC) üzvləri arasında onlayn formatda keçirilmiş görüşdə əldə olunub.

Görüşdə Azərbaycan Milli Olimpiya Komitəsinin Marketinq şöbəsinin direktoru Mehman Kərimov və şöbənin mütəxəssisi Səkinə Vəliyeva iştirak edib, ANOC-u isə Qustavo Harada və Andres Santi təmsil edib. Mehman Kərimov ANOC nümayəndələrinə MOK-da sosial media və marketinq işinin qurulması prinsipləri haqqında məlumat verib, bu sahədə dünyanın qabaqcıl təcrübəsi ilə yanaşı, MOK-un bu işə gətirdiyi yeni yanaşmaları da diqqətə çatdırıb. ANOC nümayəndələri Azərbaycan MOK-un sosial media təcrübəsinin zənginliyini vurğulayaraq hazırda dünyanın ayrı-ayrı ölkələrinin Milli Olimpiya komitələrinin bu sahədə səmərəli fəaliyyətinin təşkili məqsədilə vahid təlimat kitabçası üzərində işin başlandığını qeyd ediblər. ANOC nümayəndələri MOK ekspertlərinin də bu işdə yaxından iştirak etməsinin əhəmiyyətini bildiriblər.

Görüşdə, həmçinin iki qurum arasında sosial media və marketinq sahəsində əməkdaşlığın istiqamətləri və digər məsələlər müzakirə olunub.



# Gimnastlarımız onlayn beynəlxalq turnirdə uğurla çıxış ediblər

Batut gimnastikası üzrə onlayn keçirilmiş "Trampoline Hopes Cup" adlı beynəlxalq turnirin qalibləri müəyyənləşib. Yarışda ölkəmizi 11-12 yaş qrupunda Ammar Baxşalıyev, 13-14 yaş qrupunda Maqsud Mahsudov və Hüseyn Abbasov, böyüklər arasında isə Selcan Mahsudova təmsil ediblər. Perspektivli batutçularımız 20 ölkədən 300-dən çox idmançının iştirak etdiyi turnirdə uğurla çıxış ediblər. Belə ki, A.Baxşalıyev birinciliyi əldən verməyib. 13-14 yaşlı gimnastlar arasındakı təmsilçilərimiz - M.Mahsudov və H.Abbasov müvafiq olaraq 1 və 2-ci yerləri öz aralarında bölüşdürüblər. Böyüklər arasında çıxış edən gimnastımız S.Mahsudova da komanda yoldaşlarından geri qalmayıb. O, bu yarışda üçüncü olub.

# Avropa Olimpiya təsnifat turnirində 3 taekvondoçumuz iştirak edəcək

Mayın 7-də Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə Avropa Olimpiya təsnifat turniri start götürəcək. Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, komandamızı yarışda 3 idmançı təmsil edəcək. Qadınların yarışında Patimat Abakarova (49 kq) və Fəridə Əzizova (67 kq) qüvvələrini sınayacaqlar. Kişilərin mübarizəsində isə Avropa, dünya və Olimpiya çempionu Radik İsayev (80 kiloqramdan yuxarı) mübarizə aparacaq.

Turnir 3 gün davam edəcək.



# Boksçularımız dünya birinciliyində yarışırlar

Polşanın Keltse şəhərində gənc oğlan və qız boksçular arasında dünya birinciliyi keçirilir. Mundialda 66 ölkədən 487 (327 oğlan, 160 qız) boksçu iştirak edir. Bu, 3 il əvvəl təşkil olunan analoji yarışla müqayisədə daha yüksək rəqəmdir. Yarışda iştirak edən 66 ölkədən Bəhreyn, Banqladeş, Mərkəzi Afrika Respublikası, Konqo DR, İslandiya, Sent-Lüsiya, Syerre-Leone və Esvatini mundialda debüt edib.



Yalnız oğlanların mübarizəsində təmsil olunan millimiz yarışda baş məşqçi Əsgər Eyvazov, məşqçilər Əli İsmayılov və Şahin İmranovun rəhbərliyi altında 9 boksçu ilə mübarizə aparır. Yarışın ilk günündə Azərbaycan millisinin bir üzvü rinqə çıxıb. 56 kq çəki dərəcəsində mübarizə aparan Əzrək Bəbirov 1/16 final mərhələsi çərçivəsində Maksat Jusipovla (Qırğızıstan) qarşılaşıb. Boksçumuz rəqibinə 5:0 (30:27, 30:27, 29:28, 29:28, 30:27) hesabı ilə qalib gəlib. O, 1/8 finalda ilk mərhələdən azad olan tailandlı Panuvat Çunjan-Atla üz-üzə gəlib. Boksçumuz bu dueldən də qalib ayrılaraq adını 1/4 finala yazdırıb. O, rəqibini 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə məğlub edib.

Mundialın ikinci günündə millimizin digər üzvü Əli Zamanov ilk döyüşünü keçirib. 52 kq çəki dərəcəsində mübarizə aparan Avropa çempionumuz 1/16 final mərhələsi çərçivəsində ermənistanlı Ruben Qarboyanla üz-üzə gəlib. Ə.Zamanov rəqibini 3:0 (28:28, 29:27, 29:27, 29:27, 28:28) hesabı ilə məğlub edib. O, 1/8 finalda ilk mərhələdən azad olan tailandlı Tanakon Aonyaemlə qarşılaşıb. Görüş boksçumuzun qələbəsi ilə yekunlaşıb - 4:1 (28:29, 29:28, 29:28, 29:28, 29:28).

Yarışın ikinci günündə mübarizəyə başlayan komandamızın digər üzvü Əsəd Baxışovun (91 kq) çıxışı isə uğurlu alınmayıb. Boksçumuz 1/16 final mərhələsində rusiyalı Ramazan Dadayevlə üz-üzə gəlib. Görüş rəqibin qələbəsi ilə başa çatıb.

Mundialın üçüncü günündə rinqə çıxan Cəlal Qurbanov (60 kq) 1/16 final mərhələsi çərçivəsində Ferens Samu (Macarıstan) ilə üz-üzə gəlib. Həmyerlimiz rəqibini 5:0 (30:27, 29:28, 29:28, 29:28, 29:28) hesabı ilə məğlub edib. Boksçumuz 1/8 final görüşünü yaponiyalı Reyto Tsutsumiyə qarşı keçirib. Təəssüf ki, təmsilçimiz bu mərhələdə rəqibinə məğlub olaraq mübarizəni dayandırıb.

Yarışda 69 kq çəki dərəcəsində qüvvəsini sınayan Samir Nəsirov 1/16 finalda Mateus Urbanla (Polşa) döyüşüb. Görüş rəqibin qələbəsi ilə başa çatıb.

Dünya birinciliyinin dördüncü günündə Azərbaycan millisinin üzvü Murad Allahverdiyev (81 kq) də ilk görüşünü keçirib. Yeniyetmələr arasında Avropa çempionumuz 1/16 final mərhələsi çərçivəsində Domeniko Vingiquerranı (İtaliya) məğlub edib - 4:1 (27:30, 29:28, 29:28, 29:28, 29:28).

O, 1/8 final qarşılaşmasında Kaan Aykutsunla (Türkiyə) üz-üzə gəlib. Boksçumuz ikinci duelində türkiyəli rəqibindən üstün olub. Təmsilçimiz bu dəfə də rəqibi üzərində 4:1 (29:28, 28:29, 29:28, 29:28, 29:28) hesablı qələbə qazanıb.

Komandamızın digər üzvləri Elmir Novruzov (64 kq) və Cəfər Heydərlinin (75 kq) debütü isə uğurlu alınmayıb. Onlar müvafiq olaraq, Darian Kastro (Kuba) və Villiam Çolova (Bolqarıstan) uduzublar.

Yarışların beşinci günündə mübarizə aparan millimizin digər üzvü - Nicat Hüseynov (49 kq) debüt qarşılaşmasında Allan Morozovu (Estoniya) sınağa çəkib. 1/8 final çərçivəsində təşkil olunan döyüşdə həmyerlimiz qələbə qazanmaqda çətinlik çəkməyib - 5:0 (30:25, 30:25, 30:27, 29:27, 29:26).

Qeyd edək ki, aprelin 22-də qız idmançıların, ertəsi gün oğlan boksçuların final görüşləri təşkil olunacaq.

*Olimpizm*

# Tokio Olimpiadasının ləğv edilməsi düşünülmür



Təşkilatçılar Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarını ləğv etməyi düşünmür və koronavirus kontekstində bütün təhlükəsizlik tədbirləri nəzərə alınmaqla olimpiadanı keçirmək istəyirlər. Bu barədə Tokio-2020-nin Təşkilat Komitəsinin sədri Seyko Hasimoto ölkənin Liberal Demokrat Partiyasının baş katibi Tosihiro Nikainin açıqlamasına münasibət bildirərkən deyib. Nikai pandemiya pisləşəcəyi təqdirdə, Tokio Olimpiadasının ləğv edilmə ehtimalının olduğunu söyləyib.

# Olimpiada zamanı idmançılardan hər gün test götürüləcək

Tokio Yay Olimpiya Oyunlarının təşkilatçıları idmançıların koronavirus testlərinin aparılma tezliyini artırmaq və belə analizləri hər gün etmək niyyətindədirlər. Bu barədə Yay Olimpiya və Paralimpiya Oyunlarının keçirilməsinə cavabdeh olan nazir Tamayo Marukava açıqlama verib. "Bəzi ölkələr idmançılarını peyvənd edə, bəziləri isə etməyə bilər. Biz təhlükəsiz yarışlar keçirəcəyik və bütün ölkələrdən idmançıları gözləyirik. Hazırda gündəlik testlərin aparılmasının mümkünlüyünü ətraflı nəzərdən keçiririk", - deyə o vurğulayıb.




Beynəlxalq Olimpiya Komitəsinin daha əvvəl açıqladığı qaydalara əsasən, atletlər 4 gündə bir dəfədən az olmayaraq, test verməlidirlər. PZR testinin dövriliyi idman növündən və yarış cədvəlindən asılı olacaq. Yoxlamaların Olimpiya və Paralimpiya Kəndi ərazisindəki xüsusi laboratoriyada aparılması planlaşdırılır. İdmançı bu obyektlərdən kənarda yaşayırsa, o, analiz vermək üçün xüsusi ayrılmış nəqliyyat vasitələrindən yararlanmalı olacaq. Test nəticələrini isə smartfon üçün xüsusi əlavələr vasitəsilə izləmək mümkün olacaq.

Yoluxma aşkarlandıqda digər atletlər dərhal digər proqram əlavəsi ilə məlumatlandırılacaqlar. Həmin əlavə idmançıların şəxsi məlumatlarını özündə saxlamır, yalnız potensial risk xəbərdarlığı edir. O, Yaponiyada ötən ilin yayından istifadə olunur və Tokio Olimpiadasına gələcək şəxslər üçün vacib sayılır.

# İtaliyadan iki qızıl medal

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (AMPK) atletika idman növü üzrə idmançıları İtaliyanın Cesolo şəhərində keçirilən dünya Qran-Prisində uğurla çıxış ediblər.

AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, turnirdə T12 kateqoriyasında iştirak edən Kamil Əliyev uzunluğa tullanma növündə 6,98 metr nəticə göstərərək qızıl medal qazanıb.

Millimizin digər üzvü, T13 kateqoriyasında mübarizə aparan Orxan Aslanov uzunluğa tullanma yarışlarında 6,78 metrlik nəticə ilə bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, K.Əliyev Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziyasını artıq təmin edib. O.Aslanov isə Paralimpiadaya lisenziya qazanmaq şansını artırıb.

* * *

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (AMPK) taekvando idman növü üzrə komandası təlim-məşq toplanışında iştirak etmək üçün Özbəkistana yola düşüb.

AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, baş məşqçi Fərid Tağızadənin rəhbərliyi altında 6 parataekvondoçumuz aprelin 25-dək Daşkənddə hazırlıq prosesində iştirak edəcək.

Təlim-məşq toplanışı mayın 9-da Bolqarıstanın paytaxtı Sofiyada start götürəcək Avropa təsnifat oyunlarına hazırlıq xarakteri daşıyır.

# Bakıdakı Formula 1 yarışları tamaşaçısız keçiriləcək

Paytaxtımız iyunun 4-6-da növbəti dəfə Formula 1 yarışına ev sahibliyi edəcək. Yarışlarla əlaqədar olaraq Bakının mərkəzi küçələrində hazırlıq işləri davam etdirilir. Formula 1 Azərbaycan Qran Prisinin təşkilatçısı Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən verilən məlumata görə, bu il yarışlar pandemiya səbəbindən tamaşaçısız təşkil olunacaq. Buna görə, quraşdırma işləri zamanı əvvəlki illərdən fərqli olaraq, izləyicilərin əyləşməli olduğu tribunalar quraşdırılmayıb. Əməliyyat Şirkətindən bildirilib ki, tikinti işləri 2021-ci ilin may ayının sonuna qədər yekunlaşacaq.

— Yubiley —

***Həyatda elə insanlar var ki, onlar özləri üçün deyil, Vətəni, dövləti mənsub olduğu xalqı üçün yaşayır, yaradır. Bir çıraq kimi ətrafa işıq saçır. Bu işıqdan isə minlərlə insana pay düşür. Belə insanlardan biri də ömrünü ölkə idmanına həsr edən Azərbaycan Güləş Federasiyasının (AGF) idman şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi, beynəlxalq dərəcəli idman ustası, “Şöhrət” ordenli Yaqub Məmmədovdur. 1946-cı il aprelin 18-də Masallı rayonunda anadan olan Yaqub müəllim bugünlərdə 75 illik yubileyini qeyd etdi.***



# Yaqub Məmmədov:
## “Keçmişə qayıtmaq şansım olsaydı, uğurlarımı daha da artırardım”



1961-73-cü illərdə güləşçi kimi müxtəlif respublikadaxili və beynəlxalq yarışlarda müvəffəqiyyətlə iştirak edən yubilyar keçirdiyi 80-dən çox beynəlxalq görüşlərdə 69 dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Y.Məmmədov dəfələrlə Azərbaycan çempionu, SSRİ birinciliyinin qalibi, SSRİ çempionatının mükafatçısı, beynəlxalq yarışların qalibi və mükafatçısı olub. 1974-cü ildən məşqçiliyə başlayan Yaqub Məmmədovun fəaliyyəti dövründə respublikamızın idmançıları ən mötəbər yarışlarda 150-dən çox qızıl, gümüş və bürünc medal qazanıblar.

Yaqub Məmmədov 2000-ci ildə XXVII Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə görə ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə “Şöhrət” ordeni ilə təltif olunub.

Bu günlərdə Yaqub müəllimlə, əlaqə saxlayıb onun yubiley təəssüratlarını öyrəndik. Təcrübəli mütəxəssis “Olimpiya dünyası” qəzetinə verdiyi müsahibəsində keçdiyi ömür yolundan, xatirələrindən və həyatının ən yadda qalan anlarından danışdı.



***- Yaqub müəllim, əvvəlcə sizi 75 illik yubiley münasibəti ilə təbrik edirik. Deyirlər insanın ruhu heç vaxt qocalmır. Bəs siz necə, özünüzü hansı yaşda hiss edirsiniz?***

- Çox sağ olun. Əslində ad günləri də təqvimin bir günüdür. Hər kəs özü üçün özəl olan bu günə tabe olub, bunu qeyd edir. 75 illik yubileyimi öz ailəmlə, övladlarım və nəvələrimlə qeyd etdim. Bu gün yubiley münasibəti ilə məni təbrik edən hər kəsə qəzetiniz vasitəsilə təşəkkürümü bildirirəm. Sualınıza gəlincə isə deyim ki, gənc yaşımdan mütəmadi olaraq idmanla məşğul olduğum üçün özümü daha gənc və gümrah hiss edirəm. Azərbaycan Güləş Federasiyasının idman şöbəsinin müdiri vəzifəsində işləməyim və daim idmançıların arasında olmağım da mənə xüsusi güc və enerji verir.

***- 75 il insanın həyatdan nəticə çıxarılası bir yaş dövrüdür. Necə düşünürsünüz, həyatda atdığınız doğru addımlar yanlış addımları üstələyirmi?***

- Təbii ki, səhvsiz insan olmur. Məncə, gözəl bir karyeraya sahib olmağım həyatda atdığım ən doğru addımlardan biridir. Gənclik illərimdə energetika sahəsini seçmişdim. Lakin bir müddət sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil oldum. Məhz bundan sonra həyatımı idmana bağlamaq qərarına gəldim. Düşünürəm ki, idmanı deyil, energetikanı seçsəydim bu həyatımda qəbul etdiyim ən yanlış seçim olardı. Çünki mən ölkəmizdə idmana xidmət etməyi, gənc idmançılar yetişdirməyi daha çox sevirəm. Lakin hesab edirəm ki, energetika sahəsindəki fəaliyyətimə davam etsəydim belə, yenə də, böyük uğurlar əldə edərdim. Çünki mən mübariz keyfiyyətli insanam və olduğum hər bir sahədə birinci olmağa çalışmışam.

***- Bəs keçmişi necə, tez-tez xatırlayırsınız?***

- Əlbəttə. Hər birimiz kimi mən də keçmişi yad edirəm. İdman karyeramı, məşqçilik fəaliyyətimi, ümumiyyətlə, həyatımı gözdən keçirirəm. Əsas odur ki, keçmişə nəzər salanda xatırlayacağın xoş xatirələr və qürur duyacaq uğurların çox olsun.

***- Mahnıda deyildiyi kimi “Ötən günlərimi qaytaraydılar, gələn günlərimi qurban verərdim”. Həyatınızda bu deyimin təsdiqini tapdığınız anlar olubmu?***

- Etiraf edim ki, olub. Düşünürəm ki, keçmişə qayıtmaq şansım olsaydı, idmançı olaraq uğurlarımı daha da artırardım. Bir sözlə, yalnız bu səbəbə görə, keçmişə qayıtmaq istərdim.

***- Həyatınızda qazandığınız ən böyük uğur sizcə hansıdır?***

- Həyatımın ən böyük uğurları Olimpiya çempionu yetişdirmək və 2004-cü ildə Azərbaycanda keçirilən dünya kubokunu qazanmağımızı qeyd edə bilərəm. Həmçinin ilk dəfə 2002-ci ildə Avropa çempionatının Bakıda keçirilməsi yadda qalan hadisələrdəndir. Həmin yarışda idmançımızın Avropa çempionu olması, həmçinin gümüş və bürünc medalları qazanmağımızı da uğurlarım siyahısına əlavə edə bilərəm.

***- Bəs yaşadığınız həyatı dəyişiklik olmadan yenidən yaşamaq şansınız olsa, bu şansdan istifadə edərdiniz?***

- Həyat çox gözəldir və öz axarı ilə davam edir. Əgər məndə belə bir şans olsa idi, qeyd etdiyim kimi, yalnız uğur və nailiyyətlərimi artırmaq üçün istifadə edərdim. Lakin ümumilikdə, həyatımdan razıyam. 3 qız övladım var. Övladlarımdan biri həkimdir və hazırda ölkəmizdə də yayılan COVİD-19 pandemiyasına qarşı mübarizə aparır. Qızım həhta Vətən müharibəsi dövründə cəbhə bölgəsində ordumuza xidmət edib. Digər qızım Dövlət Miqrasiya Xidmətində mayor rütbəsini daşıyır və dövlət qulluğunda fəaliyyətinə görə, dövlətimiz tərəfindən iki dəfə medalla təltif olunub. Üçüncü qızım isə fəlsəfə üzrə doktordur və Azərbaycan Dövlət Universitetində şərqşünaslıq fakültəsində baş müəllimə işləyir.

***- Bəs həyata keçməyən arzunuz varmı?***

- Bəli, həyata keçməyən arzum da var. Lakin , bunun sirr olaraq qalması daha məqsədəuyğundur. İstərdim ki, Allah mənə bir qədər də ömür versin və bu arzumu da həyata keçirim.

***- Yaqub müəllim, baş məşqçi kimi çalışdığınız illərdə ən uğurlu idmançılarınız arasında Namiq Abdullayevi xüsusilə fərqləndirmək olar. Bu siyahıya daha hansı idmançıların adını əlavə edərdiniz?***

- 1993-cü ildən başlayaraq müstəqil Azərbaycanı təmsil edən sərbəst güləş üzrə respublika yığma komandamızın üzvləri rəhbərliyim altında yeniyetmələr, gənclər və böyüklər arasında keçirilən Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında ümumilikdə 60-a yaxın medal qazanıblar. Bəli, qeyd etdiyiniz kimi, yüksək nailiyyət qazanmış idmançılardan 3 qat Avropa çempionu, 6 qat dünya çempionatının mükafatçısı, 1996-cı ildə Atlanta Olimpiya Oyunlarının gümüş mükafatçısı, 2000-ci ildə Sidney Olimpiya Oyunlarının çempionu Namiq Abdullayevi xüsusilə qeyd etmək olar. Onunla yanaşı, 2002-ci ildə Avropa çempionu Nazim Əlicanovu, 2003-cü ildə dünya çempionu və 3 qat Avropa mükafatçısı Arif Abdullayevi, 2 qat Avropa mükafatçısı Elman Əsgərov və digərlərini də bu siyahıya əlavə etmək olar. Bundan başqa məşqçilik dövrümdə digər yaş qruplarında çıxış edən güləşçilər də Avropa və dünya birinciliklərində dəfələrlə mükafatalayiq yerləri tutublar.

***- Uzun müddət yığma komandalarımızda çalışmış baş məşqçi kimi, necə düşünürsünüz əsl idmançı hansı keyfiyyətlərə malik olmalıdır?***

- Fikrimcə, əsl peşəkar idmançı istedad və bacarığı ilə yanaşı, özünü hərtərəfli inkişaf etdirməlidir. İdmançı həm də böyük zəkaya sahib olmalıdır. Mübarizlik, komanda ilə birgə işləmək bacarığını inkişaf etdirməlidir.

Qeyd edim ki, hər zaman olduğu kimi, bu gün də milli komandaların idmançıları ilə ünsiyyətdə olur, onlara lazımi məsləhətlər verir, köməklik edirəm. Bir sözlə, çalışıram ki, öz təcrübəmi onlarla bölüşüm.

***- Sizcə, idmançı kimi uğur qazanmaq daha asandır, yoxsa peşəkar idmançı yetişdirmək?***

- Təbii ki, hər ikisi çətindir. Amma məşqçi kimi nailiyyət qazanmaq daha da çətindir. İdmançı kimi tək özünə cavabdeh olursansa, məşqçi kimi, bütün komandaya görə məsuliyyət daşıyırsan. Qələbələrim mənə hər zaman bu sahəni sevməyə, daha da həvəslə mübarizə aparmağa təkan verdi. Məğlubiyyətlə də rastlaşanda rəqibimdən revanş almaq üçün növbəti qarşılaşmanı səbirsizliklə gözləyirdim. Bir sözlə, məğlub olmağı sevmirəm. Məğlub olanda belə, tələbələrimlə çalışmışıq ki, bundan bir nəticə çıxaraq və növbəti görüşlərdə yalnız qələbə əldə edək.

*Türkay Niftəliyeva*

---

# Namiq Abdullayev: “Qazandığım böyük qələbələrdə Yaqub müəllimin rolu danılmazdır”

***Yaqub müəllim kimi işinin peşəkarı olan insanla bağlı bir çoxlarının gözəl xatirələri var. Elə bu səbəbdən də Yaqub Məmmədovun sərbəst güləş üzrə yığma komandanın baş məşqçisi kimi ən uğurlu nəticələrindən biri olan Sidney Yay Olimpiya Oyunlarının qalibi Namiq Abdullayevlə əlaqə saxladıq. Olimpiya çempionu keçmiş məşqçisini yubiley münasibəti ilə təbrik etməklə yanaşı, onunla bağlı maraqlı xatirələrini də qəzetimizlə bölüşdü.***

“Yaqub müəllimlə tanışlığımız yeniyetməlik illərimə təsadüf edir. O, məni ilk dəfə “Dinamo” İdman Cəmiyyətində Bakı birinciliyində görmüşdü. Daha sonra gənclərin təlim-məşq toplanışlarında bir yerdə olmuşuq. Yaqub müəllimin tövsiyələri mənim üçün hər zaman etalon olub. Onunla bir sıra yarışlarda olmuşuq. Qazandığım böyük qələbələrdə Yaqub müəllimin rolu danılmazdır. Hər yarışda onun tövsiyələrinə əməl edir, tapşırıqlarını dəqiqliklə yerinə yetirməyə çalışırdım. 1996-cı ildə yığma komandanın baş məşqçisi Yaqub Məmmədov və şəxsi məşqçim Vahid Məmmədovun rəhbərliyi altında Atlanta Yay Olimpiya Oyunlarında gümüş medala sahib çıxdım. 2000-ci ildə isə Sidneydə Olimpiya çempionu oldum. Yaqub müəllim Sidney Olimpiadasında ABŞ idmançısı Samuel Hensonla final görüşündən bir gün əvvəl məni Atletlər Kəndinin həyətində olan futbol meydançasına apardı. Orada sakit bir şəraitdə xeyli idmandankənar söhbət etdik. O, eyni zamanda bu gərgin final görüşü üçün məni psixoloji olaraq hazırlayırdı. Final günü səhər saatlarında yarışa gəlib baxmaq istəsəm də, arenaya gəlməyimə icazə vermədi. Beləcə, o məni kənar təsirlərdən qorudu. Həmçinin Yaqub müəllim mənə ulu öndər Heydər Əliyevə qızıl medal qazanmağımla bağlı verdiyim sözü xatırladır, bu mübarizədən yalnız qalib kimi ayrılacağıma inandığını deyirdi. Elə də oldu, həm Yaqub müəllimin, həm də Vahid müəllimin zəhmətinin bəhrəsi olaraq çempion oldum.

Yaqub müəllimin və Vahid müəllimin birgə fəaliyyəti nəticəsində dünya və Avropa çempionatlarında da bir neçə dəfə qalib və mükafatçılar sırasında yer aldım.

Bildiyiniz kimi, mən sərbəst güləş üzrə yığma komandanın baş məşqçisiyəm. Çalışıram ki, Yaqub müəllimin vaxtı ilə mənə verdiyi tövsiyələri gənclərimizlə bölüşüm. Yaqub müəllim bu gün Azərbaycan Güləş Federasiyasında çalışır. Onun tövsiyələrinə hər zaman olduğu kimi, bu gün də ehtiyac duyuruq. Yaqub müəllim həm də gözəl, qayğıkeş bir ailə başçısıdır. Bir sözlə, Yaqub müəllim haqqında çox söz demək olar. Həm güləşçi kimi uğurlu idman karyerası, həm də məşqçilik fəaliyyətində qazandığı uğurları hər bir gənc üçün örnəkdir.

Təəssüf ki, pandemiya ilə əlaqədar təntənəli yubiley keçirmək mümkün deyil. Yaqub müəllimi qəzetiniz vasitəsi ilə bir daha təbrik edir, ona uzun ömür, cansağlığı arzulayıram. Hər zaman ailəsinin və idmançıların arasında olmağı diləyirəm”, - deyə Namiq Abdullayev bildirdi.

İdman cəmiyyətlərində

# “Məhsul” İdman Cəmiyyəti 70 il ərzində ölkə idmanına böyük töhfələr verib”

***Azərbaycanda idman ənənələrinin böyük tarixi var. Bu ənənəni yaşatmaq üçün ölkənin hər bir yerində idmanı inkişaf etdirmək çoxşaxəli fəaliyyət göstərə biləcək idman cəmiyyətinin yaradılmasını tələb edirdi.***

***1951-ci ildə əsası qoyulan “Məhsul” Kənd Könüllü İdman Cəmiyyəti məhz bu ağır və çətin işi yerinə yetirməyə başlayıb. Qısa müddətdə rayon və kəndlərdə, qəsəbələrdə salınan sadə idman meydançaları, yaradılan klublar Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına güclü təkan verib. “Məhsul” Kənd Könüllü İdman Cəmiyyətinin Respublika Şurası ilk gündən fəaliyyətini möhkəm təməl üzərində qurub. İdman cəmiyyəti Azərbaycanın şəhər, rayon, qəsəbə və kəndlərində onlarla idman meydançaları, stadionlar, idman komplekslələri vasitəsilə gənc nəslin fiziki cəhətdən sağlam böyüməsinə, istedadlı idmançıların yetişdirilməsinə xidmət edir.***

Bu ilin oktyabr ayında “Məhsul” İC-in 70 illiyi tamam olacaq. Cəmiyyətin idmançıları bu illər ərzində respublika bədən tərbiyəsi təşkilatının layiqli üzvləri kimi öz uğurlu çıxışları ilə Azərbaycanın idman şərəfini həmişə ləyaqətlə qoruyublar. Ötən 70 ilə nəzər salanda cəmiyyətin onlarla dünya, Avropa və digər mötəbər yarışlarda medallar qazanmış idmançılarını görmək olar. Cəmiyyətin ən böyük uğurlarından biri ötən əsrin səksəninci illərində keçirilmiş ümumittifaq kənd idman oyunlarında olub. Bu oyunlarda “Məhsul” İC-i təmsil edən güləşçilər, boksçular komanda hesabında ümumittifaq miqyasda birinci yeri tutublar.

“Məhsul”un idman qurğuları şəbəkəsi ən ucqar kəndlərdən başlamış paytaxta qədər bütün respublikanı əhatə edirdi. Həttа 30 ilə yaxın düşmən əsarətində olan və Vətən müharibəsindən sonra erməni qəsbkarlarından azad olunan Qarabağ torpağında da cəmiyyətin idman qurğuları mövcud idi. İşğaldan əvvəl bu ərazilərdəki qurğulardan lazımı səviyyədə istifadə olunur, müxtəlif idman yarışları keçirilirdi. Lakin mənfur düşmənlərimizin dədə-baba torpaqlarımıza göz dikməsi, tarixi ərazilərimizi zəbt etməsi nəticəsində həmin idman qurğuları da dağıdılaraq məhv edildi.

Qeyd edək ki, bu idman qurğuları vasitəsilə cəmiyyət minlərlə kənd zəhmətkeşlərinin, kənd təsərrüfatı sahəsində çalışan insanların sağlamlığının möhkəmləndirilməsi üçün səmərəli işlər görmüş, əhali arasında bədən tərbiyəsinin kütləviliyini təmin edə bilmişdi.



## “Ermənilər Qarabağda mədəni irsimizlə yanaşı, idman ənənəsinə də ziyan vurdular”

Bu yaxınlarda “Məhsul” KKHKİC RŞ-in sədri, Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Rasim Əliyevlə görüşdük. Uzun müddət bu təşkilata sədrlik edən Rasim müəllim bizimlə söhbətində “Məshul” İdman Cəmiyyətinin fəaliyyətindən, erməni işğalı dövründə cəmiyyətin balansında olan idman qurğularına dəyən ziyandan danışdı. Söhbətə 1970-1980-ci illərdə baş verən hadisələri xatırlamaqla başlayan Rasim müəllim karyerası ərzində dəfələrlə erməni komandaları ilə qarşılaşdıqlarını da qeyd etdi.



“Yadımdadır, biz 1970-ci illərdə Xankəndidə həndbol üzrə Azərbaycan birinciliyində iştirak etmişik. Həmin vaxt çempionatlar əsasən, bölgələrdə keçirilirdi. Bir dəfə biz həndbolçuları Xankəndi və Şuşaya ekskursiyaya aparmışdılar. Mən həmin vaxt milli komandanın heyətində oynayırdım. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan birinciliyində iştirak etdik. O illərdə DQMV komandası da birincilikdə təmsil olunurdu. Komandanın heyəti demək olar ki, ermənilərdən ibarət idi. Həmişə onları yarışlarda qələbəyə həsrət qoymuşuq. Onlar bizə məğlub olan kimi ağlayırdılar. Ümumiyyətlə, bizim o dövrdə indi işğaldan azad edilən torpaqlarımızda böyük infrastrukturumuz var idi. Təəssüf ki, həmin idman qurğuları erməni vəhşiliyi nəticəsində dağıdılaraq, böyük ziyana məruz qalıb. Bir müddət əvvəl Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından bizə müraciət göndərildi. Müraciətə əsasən, “Məhsul”un balansında olan idman infrastrukturlarına dəyən ziyan barəsində məlumatlar toplayıb, çıxarışlar etdik. Ermənilər orada maddi və mədəni irsimizlə yanaşı, həmçinin Qarabağda olan idman ənənəsinə də ziyan vurublar. İşğal olunan rayonların əksəriyyətində yunan-Roma güləşi, sərbəst güləş, futbol, sambo, həndbol daha çox kütləvi hal almışdı. Həmin dövrdə ən böyük stadion Xankəndidə idi. Ağdamda hektar yarım, Xankəndidə isə təqribən 4,5 hektarı əhatə edən stadion olub. Lakin indi bu idman obyektlərindən əsər-əlamət belə qalmayıb” , - deyə o, diqqətə çatdırdı.

## “Çox istərdim ki, spartakiadanı möhtəşəm zəfərimizlə əlaqədar olaraq Qarabağda qeyd edək”

Hazırda “Məhsul” İdman Cəmiyyətinin nəzdində 30 il ərzində işğal altında olan bölgələrin nümayəndələri fəaliyyət göstərir. Həmin rayonların idmançıları cəmiyyətin təşkil etdiyi spartakiadalarda təmsil olunublar. Rasim Əliyev söhbət zamanı bildirdi ki, quruculuq işlərindən sonra bu rayonların sədrləri tezliklə öz yerlərinə qayıdacaq. “Qarabağdakı idman ənənələrinin yenidən bərpası da əsas vəzifələrdən biridir. Hər şey yenidən başlayacaq. Bunun üçün maliyyə vəsaiti ayrılmalı, idman qurğuları tikilməlidir. Çox istəyirik ki, növbəti spartakiadalarımızı yenidən Qarabağ torpağında keçirək. Qeyd edim ki, milli oyunlarımız əvvəllər də məhz işğaldan azad olunan rayonlarda keçirilirdi. Adı dillər əzbəri olan Qarabağ atları ilə çövkən yarışları təşkil edirdik. Həmin rayonlar işğal olunandan sonra bu oyunları Şamaxı, Sabirabad rayonlarında təşkil etməyə başladıq. Lakin son iki ildə spartakiadanı müəyyən məsələlərə görə keçirə bilmədik. Bu il “Məhsul” İdman Cəmiyyətinin 70 illik yubileyi olacaq. Bu səbəbdən də sentyabr ayında spartakiadanı təmtəraqla keçirməyi düşünürük. Düzü, çox istərdim ki, yubiley ilimizə təsadüf edəcək bu spartakiadanı məhz möhtəşəm zəfərimizlə əlaqədar olaraq Qarabağda qeyd edək. Amma bu hələ ki, həmin torpaqlarda həyata keçirilən minatəmizləmə prosesinə görə bəlkə də mümkün olmayacaq. Bununla belə, istəyirik ki, builki Spartakiadanı təntənəli keçirək”, - deyə Rasim Əliyev bildirdi.






**“Məhsul” KKHKİC RŞ-in Qarabağ bölgəsində olan idman qurğularının siyahısı**

| Rayonlar | Ölçüsü | Balans dəyəri | Tarixi | Balans dəyəri tarix-2021-ci il |
|---|---|---|---|---|
| 1. Şuşa (idman bazası) | 1.1 ha | 21735 rub | 1981-ci il | 814875 |
| 2. Laçın (şahmat klubu) | 0,02 ha | - | 1981-ci il | - |
| 3. Xankəndi (idman bazası) | 4,5 ha | 321150 rub | 1968-ci il | 12043125 |
| 4. Kəlbəcər (idman bazası) | 2,2 ha | 146455 rub | 1982-ci il | 5491875 |
| 5. Qubadlı (stadion) | 2,5 ha | 6902 man | 1974-cü il | 2588250 |
| 6. Ağdam (stadion) | 1,5 ha | 40000 rub | 1951-ci il | 1500000 |

## “Məhsul” İdman Cəmiyyətinin əməkdaşları Qarabağ müharibələrində fəal şəkildə iştirak ediblər

Müstəqillik illərimizin ən böyük hərb zəfəri olan 44 günlük Vətən müharibəsində “Məhsul” KKHKİC RŞ-in əməkdaşları da fəal iştirak ediblər. Belə ki, sentyabrın 29-da könüllü olaraq cəbhəyə yollanan Respublika Şurasının mühasib-xəzinədarı İbiş Əbilbəyli torpaqlarımızın azad olunması əməliyyatlarında iştirak edərək ona verilən tapşırıqları şərəf və ləyaqətlə yerinə yetirib. “Məhsul” İdman Cəmiyyətinin Füzuli rayon Uşaq Gənclər İdman Məktəbinin direktoru Kamil Qulamov da Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan Vətən Müharibəsi dövründə arxa cəbhədə göstərdiyi xidmətlərinə və fədakarlığına görə seçilib.

Söhbət zamanı ordumuzun Vətən müharibəsində qazandığı qələbəyə toxunan Rasim müəllim həm birinci, həm də ikinci Qarabağ müharibəsində “Məhsul”un əməkdaşlarının da iştirak etdiyini vurğulayıb.

“İstər birinci, istərsə də ikinci Qarabağ savaşlarında “Məhsul”un əməkdaşları həmişə cəbhə bölgəsində olub. Birinci Qarabağ müharibəsi zamanı “Məhsul”un Qubadlı Rayon Şurasının sədri, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Əliyar Əliyev 1992-ci ildə birinci Qarabağ müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Əliyar Əliyev Qubadlının Qazyan kəndindən idi. Yaxşı güləşçi olmaqla yanaşı, pəhləvanlıq da edirdi. Əliyar həmin illərdə Qubadlıda idmanın təşkilində böyük rol oynayıb. O, əvvəllər “Məhsul” Kənd Könüllü İdman Cəmiyyətində məşqçi olub. 1985-ci ildən isə Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyəti rayon şurasının sədri seçilmişdi. Ermənilər ölkəmizə qarşı təcavüzə başlayanda cəbhəyə ilk könüllü yollananlardan biri Əliyar Əliyev idi. Füzuli Rayon Uşaq Gənclər İdman Məktəbinin direktoru Kamil Qulamov isə 44 günlük Vətən müharibəsində könüllü şəkildə iştirak edib. O, özü də əslən Füzulidəndir. Müharibə vaxtı döyüş bölgələrinə gedib, yaralıların gətirilməsi prosesində iştirak edib. Digər əməkdaşımız İbiş Əbilbəyli də Vətən müharibəsinin başladığı günlərdən könüllü şəkildə ordu sıralarına qoşulub. O, “Məhsul” Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyəti Respublika Şurasına mühasib-xəzinədar vəzifəsində çalışır. Cəbrayıl, Xocavənd, Zəngilan, Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə fəal iştirak edərək dekabrın 28-də ordu sıralarından tərxis olunub. Göstərdiyi şücaətlərə görə İbiş Əbilbəyli “Füzulinin azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib. İbiş hər zaman kollektiv arasında öz vətənpərvərliyi ilə seçilib. O, müharibədən qayıtdıqdan sonra yenidən hərbiyə qayıtmağı, orada gizir kimi xidmət etməyi istəyir. Təbii ki, onun bu seçimini yalnız hörmətlə qarşılayırıq. Biz fəxr edirik ki, milli qürurumuzu, güvənimizi yenidən özümüzə qaytaran hərbçilər arasında bizim də əməkdaşlarımız olub”, - deyə o, vurğuladı.

## ““Məhsul” İdman Cəmiyyəti yüksək nəticələri ilə ölkə idmanının inkişafında müsbət rol oynayıb”

“Məhsul” İdman Cəmiyyəti bu gün də Azərbaycan bədən tərbiyəsi və idmanını həmişə irəli aparmağa xidmət göstərir. Ötən ilin fevral ayında “Məhsul” İdman Cəmiyyətinin yetirməsi Səbinə Qədirova (52 kq) İspaniyada yeniyetmələr arasında Avropa Kubokų yarışında bürünc medala sahib çıxıb. Təəssüf ki, bütün dünyanı bürüyən koronavirus pandemiyası tezliklə idmana da təsirsiz ötüşmədi. İdman yarışlarının təxirə salınması “Məhsul” İdman Cəmiyyətinin də idman nəticələrinə təsir etdi. Pandemiya şəraitində idmançıların hazırlıq məsələlərinə toxunan Rasim müəllim hazırda məşqlərin yalnız ev şəraitində keçirildiyi deyib. “İdmançılarımız yalnız fiziki hazırlıqlarla kifayətlənirlər. Hamı kimi biz də tezliklə bu problemin aradan qalxmasını yenidən pandemiyasız bir şəraitdə məşq etməyi və yarışlarda təmsil olunmağı istəyirik. “Məhsul” İdman Cəmiyyəti 70 il ərzində ölkə idmanına böyük töhfələr verib. Bunun üçün də “Məhsul” İdman Cəmiyyətinin sədri olaraq qeyd etmək istərdim ki, gələcək işimizdə daha da uğurlu nəticələr əldə etməyə səy göstərəcəyik”.

*Azər Əlizadə*

FUTBOL

# AFFA anlaşma Memorandumu imzalayıb




Türkdilli ölkələrin futbol assosiasiyaları arasında Anlaşma Memorandumu imzalanıb. COVID-19 pandemiyası ilə əlaqədar imzalanma tədbiri videokonfrans formatında təşkil olunub. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti Rövnəq Abdullayev, Türkiyə Futbol Federasiyasının prezidenti Nihat Özdemir, Macarıstan Futbol Federasiyasının prezidenti Sandor Csanyi, Qazaxıstan Futbol Federasiyasının prezidenti Adilbek Jaksıbekov, Qırğız Futbol İttifaqının prezidenti Kanatbek Mamatov, Türkmənistan Futbol Federasiyasının prezidenti Arslan Aynazarov, Özbəkistan Futbol Assosiasiyasının prezidenti Abdulsalom Azizov və Türk Şurasının baş katibi Bağdad Amireyev tərəfindən imzalanmış memorandum federasiyalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, futbolun inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi prosesində təcrübə mübadiləsi və digər məsələləri özündə ehtiva edir.

AFFA-nın prezidenti Rövnəq Abdullayev memorandumun imzalanma tədbirində çıxış edərək türkdilli ölkələrin futbol assosiasiyaları arasında imzalanan Anlaşma Memorandumunun gələcək fəaliyyətdə xüsusi önəmi olacağını bildirib: “Bu memorandumun imzalanması Azərbaycan Futbol Federasiyaları Assosiasiyası üçün vacib hadisədir və əminik ki, bütün həmkarlarımız bundan məmnundur. Bildiyiniz kimi, memorandum qarşılıqlı əməkdaşlıqla bağlı bir çox məqamları özündə əks etdirir və qarşıdakı illərdə futbolun inkişafı ilə bağlı bütün istiqamətlərdə təcrübəmizin paylaşılması baxımından əlavə üstünlük yaradan bir platformadır. Əlbəttə, çox istəyərdik ki, bu cür vacib və tarixi əhəmiyyətli sənədin imza mərasimi canlı görüş formatında təşkil olunsun. Təəssüf ki, son dövrlərin məlum səbəbləri ucbatından bu gün onlayn formatda görüşməli oluruq. Ümid edək ki, gələcəkdə bu memorandumdan irəli gələn bütün məsələlərin həlli ilə bağlı müzakirələrin aparılması zamanı onlayn görüş zərurəti olmayacaq.

Bir daha hər birinizə təşəkkür edir, Anlaşma Memorandumunu imzalayan bütün futbol assosiasiyaları üçün xeyirli-uğurlu olmasını arzulayıram!”

Qeyd edək ki, tədbirdə AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, Türkiyə Futbol Federasiyasının 1-ci vitse-prezidenti Servet Çetin və baş katib Kadir Kardaş, Macarıstan Futbol Federasiyasının vitse-prezidenti Sandor Berzi, Qırğız Futbol İttifaqının vitse-prezidenti Dastanbek Konakbayev, Özbəkistan Futbol Federasiyasının vitse-prezidenti Ravşan İrmatov, Türk Şurası baş katibinin müavini Ömer Kocaman və layihə direktoru Ali Çiviler iştirak ediblər.

# “Neftçi” liderlə xal fərqini minimuma endirdi

Futbol üzrə Azərbaycan Premyer Liqasında XIII turun oyunları keçirilib. Günün ilk oyununda “Səbail” lider “Qarabağ”ı qəbul edib. “ASCO Arena”dakı qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. Meydan sahiblərinin heyətində Amil Yunanov 37-ci dəqiqədə penaltidən hesabı açıb. 42-ci dəqiqədə isə Uroş Matiç Ağdam təmsilçisinin bərabərlik qolunu vurub.




Turun növbəti görüşü “Sumqayıt” və “Qəbələ” komandaları arasında keçirilib. “Kapital Bank Arena”da təşkil olunmuş qarşılaşma meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb - 2:0.

Qonaq komanda 38-ci dəqiqədə aparıcı futbolçusu Asif Məmmədovu zədə üzündən itirdikdən sonra çətinliklə üzləşib. “Sumqayıt”ın ardıcıl hücumları ikinci hissədə bəhrəsini verib. 66-cı dəqiqədə Rəhim Sadıxov uzaqdan zərbə ilə gözəl qola imza atıb. 75-ci dəqiqədə isə Əli Qurbani fərqlənərək, çempionatda 7-ci topunu vurub.

Futbol üzrə Azərbaycan Premyer Liqasında XXIII turun növbəti görüşü “Keşlə” və “Sabah” komandaları arasında olub. “ASK Arena”da keçirilmiş oyun qolsuz yekunlaşıb.

Turun son oyununda “Neftçi” klubu “Zirə”ni qəbul edib. “Bakcell Arena”dakı qarşılaşma meydan sahiblərinin 4:0 hesablı qələbəsi ilə başa çatıb.

Görüşdə bütün qollar ikinci hissədə vurulub. Matçın 47-ci dəqiqəsində çempionatın bombardiri Namik Ələskərov hesabı açıb. Oyunun 74-cü dəqiqəsində Mirabdulla Abbasov ikinci topu rəqibin qapısından keçirib. Cəmi 3 dəqiqə sonra N.Ələskərov dubl edib. Bu, onun Premyer Liqada 16-cı qolu olub. Son nöqtəni isə matçın əsas vaxtına əlavə olunmuş sonuncu - 2-ci dəqiqədə Stiven Jozef-Monroz qoyub.

Beləliklə, 23 turdan sonra turnir cədvəlinə aktivində 47 xalı olan “Qarabağ” klubu başçılıq edir. Liderdən bir xal geri qalan “Neftçi” ikinci pillədə yer alıb. “Zirə”nin son turdakı məğlubiyyətindən yararlanan “Sumqayıt” xallarını 32-yə çatdıraraq üçüncü pilləyə yüksəlib. Eyni xala malik olan “Zirə” isə dördüncüdür. “Qəbələ” klubu 24 xalla beşinci pillədə qərarlaşıb. “Səbail” və “Sabah” klubları isə 21 xalla 6-7-ci yerləri bölüşürlər. “Keşlə” isə 20 xalla 8-ci pillədə qalıb.

# *Millimiz seçmə mərhələyə qələbə ilə yekun vurdu*

Futzal üzrə Azərbaycan milli komandası Avropa çempionatının seçmə mərhələsi çərçivəsində qrupda sonuncu oyununu keçirib. Bakı İdman Sarayında keçirilən qarşılaşmada Yunanıstan yığması ilə üz-üzə gələn millimiz 4:0 hesablı qələbə qazanıb. Panagiotis Gousisin avtoqol müəllifi olduğu oyunda millimizin digər qollarını Fineo, İsa Atayev və Ramiz Çovdarov vurublar.

Qeyd edək ki, aktivində 16 xalı olan millimiz 3-cü qrupun liderdir və gələn il yanvarın 19-dan fevralın 6-dək Niderlandda keçiriləcək Avropa çempionatının final mərhələsinə vəsiqəni təmin edib. İndiyədək millimiz 5 dəfə (2010-cu, 2012-ci, 2014-cü, 2016-cı və 2018-ci illərdə) qitə birinciliyinin həlledici mərhələsində iştirak edib.



# *Qrossmeysterlərimiz yenidən Çempionlar Turunun iştirakçıları sırasında*

Dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi Çempionlar Turunun V mərhələsinin iştirakçı şahmatçılarının adları açıqlanıb.

Turnirdə Azərbaycanı IV mərhələdə olduğu kimi, Teymur Rəcəbov və Şəhriyar Məmmədyarov təmsil edəcək.

“New In Chess” adlı V mərhələdə də 16 şahmatçı mübarizə aparacaq. Yarış İddiaçılar Turniri ilə eyni vaxta düşdüyü üçün siyahıya aparıcı qrossmeysterlərin əvəzinə bir neçə yeni şahmatçı daxil edilib.

Çempionlar Turunun IV mərhələsində Maqnus Karlsen, Aryan Tari, Yohan-Sebastyan Kristiansen (hər üçü Norveç), Uesli So, Hikaru Nakamura, Lenyer Dominges (hər üçü ABŞ), Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov (hər ikisi Azərbaycan), Rameşbabu Praqqnanandha, Vidit Qucrati (hər ikisi Hindistan), Levon Aronyan (Ermənistan), Alireza Firuzca (FIDE), Sergey Karyakin (Rusiya), Yan Kşiştof Duda (Polşa), Le Kuanq Lyem (Vyetnam), Qaveyn Cons (Böyük Britaniya) iştirak edəcək.

Turnirin ümumi mükafat fondu 100 min ABŞ dolları olacaq. Qalib 30 min dollar qazanacaq.

Qeyd edək ki, aprelin 24-də start götürəcək yarış mayın 2-də başa çatacaq.

# Beşqat dünya çempionumuz məşhur dünya ulduzları ilə eyni siyahıda

Yaponiyanın paytaxtı Tokiodakı Yay Olimpiya Oyunlarında iştirak edəcək ulduzların adları açıqlanıb.



“Globoesporte” nəşri olimpiadanın startına 100 gün qalmış, müxtəlif idman növləri üzrə 100 ən yaxşı idmançının siyahısını tərtib edib. Siyahıya Azərbaycanın karate üzrə 5 qat dünya və 11 qat Avropa çempionu Rafael Ağayev də düşüb. R.Ağayev bu idman növündə yer alan yeganə karateçi olub.

“100-lük”də Braziliya millisinin və Fransa PSJ-nin ulduz futbolçusu Neymar, məşhur tennisçilər - ispaniyalı Rafael Nadal, serbiyalı Novak Cokoviç və isveçrəli Roje Federer, ABŞ təmsilçisi Serena Uilyams, basketbolçular Lebron Ceyms və Stefen Karri kimi digər tanınmış simalar da var.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları koronavirus pandemiyası ilə əlaqədar 2020-ci il 24 iyul - 9 avqustdan bu il 23 iyul - 8 avqusta təxirə salınıb. Yay Paralimpiya Oyunları isə 24 avqust - 5 sentyabrda gerçəkləşməlidir.

# Ədalət təmsilçilərimiz nüfuzlu yarışa dəvət alıblar

Azərbaycanın beynəlxalq dərəcəli həndbol hakimləri ölkəmizi daha bir nüfuzlu yarışda təmsil edəcəklər. Azərbaycan Həndbol Federasiyasından verilən məlumata görə, referilər Ernest və Emil Ağakişi qardaşları qadın həndbolçular arasında təşkil olunacaq dünya çempionatının təsnifat mərhələsi çərçivəsində keçiriləcək Rusiya-Türkiyə görüşünə təyinat alıblar. Hakimlərimiz bu gün Moskvanın “Dinamo” arenasında təşkil olunacaq prinsipial qarşılaşmada ədaləti qoruyacaqlar.

Rusiya paytaxtında keçiriləcək görüş kifayət qədər gərgin və maraqlı idman mübarizəsi vəd edir. Referilərimizdən dünya çempionatının final mərhələsinə vəsiqənin taleyini həll edəcək görüşdə böyük məsuliyyət tələb olunur. Onların bu vəzifənin öhdəsindən layiqincə gələcəyi isə şübhə doğurmur.

Xatırladaq ki, bu, Ernest və Emil Ağakişi qardaşlarının ali həndbol qurumlarının bayrağı altında keçirilən turnirlərə ilk təyinatı deyil. Həndbol hakimlərimizin beynəlxalq yarışlarda kifayət qədər təcrübəsi var.

# Avropa çempionatının vaxtı dəyişdirilib

Kiprin Limassol şəhərində keçirilməsi planlaşdırılan sambo üzrə Avropa çempionatının vaxtı dəyişdirilib.

Turnirin planlaşdırıldığı vaxtdan bir həftə sonra - mayın 26-29-da keçirilməsi qərara alınıb. Belə ki, yeniyetmə və gənclər mayın 26-27-də, böyüklər isə ayın 28-29-da qitə çempionatında mübarizə aparacaqlar. Yarışın vaxtı koronavirus pandemiyası səbəbindən dəyişdirilib.

Qitə çempionatında Azərbaycan samboçularının da iştirakı nəzərdə tutulub.

# Formula 1

## Təhlükəyə meydan oxuyan sürət formulası

### *Həyəcan dolu anlar, maraqlı hadisələr, unudulmayan xatirələr*




*(əvvəli qəzetimizin 16-29 mart sayında)*

***Formula 1 dünyanın ən bahalı idman yarışlarından biri sayılır. Milyonlarla tamaşaçı onlayn, minlərlə azarkeş isə tribunalardan bu ecazkar mübarizəni sona qədər izləyir. Təxminən 4 saata qədər davam edən sürət yarışında neçə-neçə maraqlı hadisələr baş verir. Ötən saylarında Formula 1 haqqında ən maraqlı faktları bir araya toplayan "Olimpiya dünyası" həmin yazının ardını çoxsaylı oxucularına təqdim edir.***

### Ən uzun yürüşdən, ən tez başa çatan mübarizəyə qədər...

Qran-pri tarixində ən uzun davam edən mübarizə 1954-cü ilə təsadüf edir. Belə ki, Almaniyanın Nyurburqrinq trassında keçirilən yarışda Xuan Manuel Fanxio finişə 3 saat 45 dəqiqədən sonra çatıb. Çempionun ən tez müəyyənləşdiyi Qran-pri isə Avstraliyada qeyd alınıb. 1991-ci ildə təşkil edilən yarış yağış səbə-





bindən vaxtında əvvəl yekunlaşıb. Mərhum pilot Ayrton Senna 24 dəqiqə ərzində 53 km-lik məsafəni 14 dəfə dövrə vuraraq qalib adını qazanıb.

### Vitse-çempionluqdan bəzən cəngavər

Formula 1 tarixində bəxti gətirməyən pilot ingiltərəli Stirlinq Moss hesab olunur. Belə ki, 1950-ci ildə keçirilən dörd yarışda o, mübarizəni ikinci pillədə başa vurub. Növbəti yarışların birində vitse-çempionluqdan bezən Stirlinq bu mükafatdan imtina edərək, kürsünü vaxtından əvvəl tərk edib. Ümumilikdə isə Moss 1955-ci ildən 1958-ci ilədək mütəmadi olaraq ikinci,




1959-cu ildən 1961-ci ilə qədər isə üçüncü yerlə kifayətlənib. Karyerasını çempion olmadan başa vuran britaniyalı pilot biznes sahəsinə maraq göstərib. Lakin avtomobilə olan marağı onu tərk etməyib. 2000-ci ildə o, Klassik Ralli Assosiasiyasının prezidenti vəzifəsinə təyin olunur. Moss dünya şöhrətli layihənin - retro avtmobillərin "Yer ətrafında 80 gün" yürüşünün təşkilatçısı kimi yaddaşlarda qalıb. Onun bu nailiyyəti yerli hökumət tərəfindən yüksək qiymətləndirilmiş, cəngavər titulu, Britaniya İmperiyasının Ordeninə layiq görülmüşdür.

### Zəhmətlə zirvəyə ucalanlar

Formula 1 dünyasında tanınan simaların əksəriyyəti bir vaxt komandalarının texniki işçiləri kimi fəaliyyətə başlayıblar. Bu sahəyə olan maraq və illər ərzində əldə olunan təcrübə onları daha böyük zirvələrə ucaldıb. "Uilliams" komandasının yaradıcısı Frenk Uilyams, "Mc Laren" keçmiş rəhbəri Ron Dennis gənclik illərində çilingər kimi işləyiblər. FİA-nın rəhbəri Jan Todt isə şturman kimi ralli yarışlarında iştirak edib.

### 1,88 saniyə - "Red Bull"un dəyişməyən rekordu

Formula 1 yarışlarında mühəndislərə də kubok təqdim olunur. Bu kubok yarış ərzində öz bolidlərini sazlayan və pits-stopda cəld işləyən heyətə təqdim olunur. Formula 1 komandaları arasında ən yaxşı göstərici "Red Bull" mühəndislərinə məxsusdur. Belə ki, ən yaxşı komanda bolidlərin təkərlərini 2,5 saniyə ərzində dəyişmək iqtidarındadır. Lakin "Red Bull" komandasının rekordu daha fantastik görünür. Qran-prilərin birində komanda 1,88 saniyəlik rekordu ilə Formula 1 dünyasında çoxlarını heyrətə gətirib.

### Rəqiblər "Tozsoran"a mane oldular

1978-ci ildə İsveç Qran-prisində iştirak etmək üçün Parmalat komandasının mühəndisləri "Brabham BT46C" bolidini sınaqdan keçirdilər. "Tozsoran" ləqəbli bu bolidin arxa hissəsində quraşdırılan pərlər onu daha sürətli olmağa imkan vermişdi. Təşkilatçılar bu bolidin "tozsoranı" barədə soruşanda mühəndislər bildirmişdilər ki, həmin pərlər yalnız mühərrikin həddindən



artıq qızmaması üçün nəzərdə tutulub. Beləliklə, yarış başlayır, üççat dünya çempionu (1975, 1977, 1984) Niki Laudanın idarə etdiyi bu "tozsoran" yarışda bütün bolidləri keçir. Bununla digər komandalar arasında narazılıqlar yaranır. Hətta yarışın nəticələri ləğv olunmaq təhlükəsi ilə üz-üzə qalır. Təşkilatçılar bu yeniliyi müsbət qarşılasalar da, "Parmalat"a bildirilir ki, qarşıdakı yarışlarda bu qurğudan bir daha istifadə olunmasın. Lakin həmin bolid indiyə qədər Formula 1 muzeyinin ən dəyərli eksponatı kimi saxlanılmaqdadır.

### Zəriflərin sürət mübarizəsi - 5 qadından biri 0,5 bal

Qadın pilotlar əks cinsin nümayəndələri ilə birlikdə yarışa bilərmi? Belə bir hal tarixdə bir neçə dəfə baş verib. Belə ki, bu vaxta qədər ayrı



ayrı qran-prilərdə 5 qadın pilot - Mariya Tereza de Fillips, Lella Lombardi, Qalika Divina, Dezire Uilson və Covanna Amati öz bacarığını nümayiş etdirib. Yalnız onlardan biri digərlərindən üstün olub. 1975-ci ildə italiyalı Lella Lombardi kişilərlə birlikdə iştirak etdiyi yarışda 0,5 xal toplaya bilib. Onun bu uğuru hələ də Formula 1 tarixində dəyişməz olaraq qalır. Qadınların kişilərlə birlikdə mübarizə apara bilməməsinin əsas səbəbləri fiziki və mənəvi cəhətdən üstün olmamaları ilə xarakterizə olunur.

### Qorxusuz qorxaqlar

Formula 1 yarışlarında iştirak edən pilotların əksəriyyəti əlamətlərə inanırlar. Onların sınamaları yetərincə çoxdur. Məhz bunu nəzərə alan yarış təşkilatçıları, xüsusilə FİA (Beynəlxalq Avtomobil Federasiyası) pilotlara bu barədə heç bir qadağa qoymurlar. Ən azından peletonda (yürüş zamanı startda bolidlərin düzülüşü - A.Ə) 13 nömrəli bolidə heç vaxt rast gəlmək mümkün deyil. "Nəhs" hesab olunan bu rəqəm 2014-cü ildən sonra bolidlərin üzərindən silinib. Bununla da peletonda düzülən bolidlər arasında 12-dən sonra 14 gəlir.

### Yer altından tapılan bolidlər Formula 1 dünyasına səs saldı



Bir neçə il bundan qabaq Fransada adı qeyd olunmayan şəhərlərin birində qəribə hadisə baş verib. Tikinti işçilərinin apardığı qazıntı zamanı yer altından xeyli bolid aşkarlanıb. 1980-1990-cı illərə məxsus olan bu bolidlər yük avtomobillərinə yüklənmiş vəziyyətdə aşkarlanıb. Hadisə FİA əməkdaşlarının da diqqətini özünə cəlb edib. Həmin bolidləri araşdıran mütəxəssislər "Ferrari", "Lotus" və "Renault"a məxsus olan avtomobillərin saxta olduğu qərarına gəliblər. Onlar bildiriblər ki, basdırılmış bolidlər Formula 1 parametrlərini özündə əks etdirmir. Belə ki, onların nömrələri, kuzovun rəngləri FİA-nın standartları ilə üst-üstə düşmür. Qeyd olunan şirkətlərə aid bolidlərin əsli onların özünəməxsus muzeylərində saxlanılır. Aparılan araşdırmalar bu günə qədər də davam etdirilir, lakin qəti fikir hələ də söylənilməyib.

### Yarımçıq qalan arzular

Formula 1-in keçmiş rəhbəri Berni Ekklstoun qərara alır ki, 1960-cı illərdə Qran-pri yarışlarından biri də SSRİ-də keçirilsin. Təşkilat Komitəsi də bu qərarla razılaşır. Buna görə Berni keçmiş sovetlər ölkəsinə gəlib, Sov.İKP MK-nın Baş katibi Leonid Brejnevlə görüşür. Lakin hər şey bu görüşlə bitmirdi. Razılıq əldə olunduğu təqdirdə dövlət yarış üçün 40 milyon rubl xərcləməli idi. Bu məbləğ isə həmin dövr üçün yetərincə yüksək idi. İlk növbədə trek inşa olunmalı idi. Ehtimal olunurdu ki, həmin trek Tuşino şəhərində, Sxodnya çayının sahilində inşa olunacaq. Trekin yanında 5 minlik hotel və 150 minlik tribuna da layihəyə aid idi. Amma bu çox qeyri-adi bir işə bənzəyirdi.

1980-ci ildə Moskva Yay Olimpiya Oyunlarına ev sahibliyi etdi. Oyunlar başa çatdıqdan sonra Berni layihə üçün yenidən işlərini davam etdirdi. Artıq həmin vaxt Berni Formula 1 yarışlarının keçirilməsində əsas söz sahibinə çevrilmişdi. O, SSRİ-də bu işin həyata keçirilməsini istəyirdi. O dövrün mətbuatında qeyd olunurdu ki, Berni Leonid Brejnevlə bu məsələni demək olar ki, həll etmişdi. Berni yaxşı başa düşürdü ki, SSRİ-də keçirilən bu yarış ona daha böyük şöhrət gətirəcək. Bir sıra ölkələr üçün qapalı olan bu ölkəyə xeyli azarkeş gələcək. Moskva -80 Olimpiadasının boykotuna baxmayaraq, Berni bu işin uğurla həyata keçəcəyinə inanırdı. Bildirilir ki, Leonid Brejnevin avtomobilə olan hədsiz marağı bu işin icrası üçün böyük üstünlük idi. Beləliklə, yarış 1983-cü ilin avqustunda keçirilməli idi. Həmin yarış dünya çempionatını təqviminə də salınmışdı. Lakin Baş katibin 1982-ci il noyabrın 10-da qəflətən ürək tutmasından ölümü bu planın da həyata keçməsinə mane oldu. Berin Brejnevdən sonra hakimiyyət gələn Yuri Andropova məktub yazaraq, yarışın keçirilməsi üçün təklif göndərdi. Lakin Brejnevdən fərqli olaraq onun xələfi bu sahəyə maraqlı olmadığı üçün, həmin məktub və təklif cavabsız qaldı.

*(ardı var)*

***Hazırladı: Anar Əhmədov***

FUTBOL

# Avropadan transfer xəbərləri

## İspaniya

"Real" sol kənar müdafiəçisi Marseloya əvəzləyici axtarmağa başlayıb. Çox güman ki, futbolçu yayda klubu tərk edəcək. Məlumata görə, braziliyalını əvəz etmək üçün əsas namizəd "Arsenal"ın müdafiəçisi Kiran Tirnidir.



Hazırda "Real"ın "Arsenal"da iki futbolçusu - Martin Edeqor və Daniel Sebalyos çıxış edir. "Topçular" bu futbolçuları tamamilə heyətdə saxlamaq istəyir. Elə bu səbəbdən Madrid klubu Kiran Tirniyə görə, bu oyunçulardan biri ilə müqaviləni ləğv etməyə hazırdır.

* * *

"Barselona" Samuel Umtitini satmaq niyyətindədir. Əvəzində "Milan"ın futbolçusu Alessio Romanyolinin kluba keçidi hələ də diqqət mərkəzindədir. Kataloniyalılar "Ayaks"dan Lisandro Martines, "Feyenoord"dan Markos Senesini növbəti mövsümdə öz heyətlərində görmək istəyir.

## İngiltərə

"Seltik"in hücumçusu Odsonn Eduard karyerasını İngiltərədə davam etdirə bilər. 23 yaşlı fransalı futbolçu "Arsenal" və "Lester" klublarının diqqət mərkəzinə düşüb. Transfer razılaşmaları hər iki tərəfdən təsdiqlənib, keçidin və seçimin yayda baş tutacağı gözlənilir.

* * *

"Vest Hem"in yarımmüdafiəçisi Deklan Rays karyerasını "Çelsi"də davam etdirə bilər. "Zadəganlar"ın keçmiş baş məşqçisi Frenk Lempardın dövründə o transfer hədəflərindən biri olsa







da, sonradan bu istək yarımçıq qalıb. London təmsilçisi yenidən Raysın keçidi üçün işləre başlayıb.

* * *

"Mançester Yunayted" klubu İtaliya "Yuventus"unda çıxış edən Kriştianu Ronaldonun transferi üçün aparıcı futbolçularının birindən imtina edə bilər. Belə ki, ingiltərəlilər 36 yaşlı portuqaliyalı hücumçuya görə Pol Poqbanı göndərməyi planlaşdırır.

Çünki Poqbanın meneceri 2022-ci ildə başa çatacaq müqaviləni yeniləmək istəmədiklərini diqqətə çatdırıb.

Qeyd edək ki, Kriştianu Ronaldo 2003-2009-cu illərdə "Mançester Yunayted"in formasını geyinib. O, üç dəfə Premyer Liqada, bir dəfə ölkə kubokunda və Superkubokda qalib olub. Ulduz futbolçu İngiltərə təmsilçisinin heyətində Çempionlar Liqasını və klublararası dünya çempionatını, həmçinin ilk dəfə "Qızıl top"u qazanıb.

Ronaldonun "Yuventus"la müqaviləsi 2022-ci ilin yayında başa çatmalıdır. Portuqaliyalı oyunçunun illik məvacibi 31 milyon avrodur. Forvard Turin klubuna 2018-ci ilin iyulunda Madrid "Real"ından 117 milyon avroya keçib.

* * *

"Real"ın futbolçusu Rafael Varan yayda İngiltərə Premyer Liqasında çıxış edə bilər. Müdafiəçi "Mançester Yunayted"in hədəfindən olan futbolçulardan birinə çevrilib. Varanın özü də Madriddə qalmaq istəmir. Bunun üçün "Real" 60 milyon funt sterlinq qiymət bildirib. Mançesterlilər bu qiymətin bir qədər enməsi üçün qarşı tərəfə müraciət edib.

Qeyd edək ki, Rafael PSJ-nin də maraq dairəsindədir.

* * *

Harri Keynin yayda "Tottenhem"dən ayrılmaq istəyi dəqiqləşib.

28 yaşlı hücumçu komandanın kuboklar uğrunda mübarizə aparmamasından narazıdır. Əgər London təmsilçisi 2020/2021 mövsümünün sonunda Çempionlar Liqasına vəsiqə qazana bilməsə Keyn klubu tərk edəcək. Artıq onunla "Mançester Yunayted", "Mançester Siti" və Avropanın bir neçə aparıcı klubları maraqlanır.

## İtaliya

"Latsio"nun yarımmüdafiəçisi Sergey Milinkoviç-Saviç üç böyük klubun diqqət mərkəzinə düşüb. "La Gazetta dello Sport"un verdiyi məlumata görə serbiyalı futbolçu "Real", "Mançester Yunayted" və PSJ-nin hədəfindədir. Milinkoviç bu təkliflər barədə bildirib ki, əgər komandası növbəti mövsümdə Çempionlar Liqasına vəsiqə əldə edə bilməsə, klubu tərk edib, həmin təkliflərdən biri ilə razılaşacaq.

* * *

PSJ "Yuventus"la futbolçularını dəyişmək istəyir. Paulo Dibala PSJ-yə, Mauro İkardi isə "Yuventus"a keçə bilər. Bu yerdəyişmə ilə ala-



qədar detalları müzakirə etmək üçün "Yuventus" argentinalı agenti, xanımı Vanda Nara ilə görüşüb.

Qeyd edək ki, Dibalanın "Yuventus"la müqaviləsi bu yay bitir.

* * *

"Yuventus" "Atalanta"da çıxış edən Duvan Sapata ilə maraqlanır. Turin klubu 30 yaşlı futbolçunu öz heyətinə cəlb etmək istəyir. Buna görə, Berqamo təmsilçisi "Qoca Sinyora"dan 50 milyon avrodan az olmayaraq pul istəyir. Qeyd edək ki, Sapata "Liverpul"un da diqqət mərkəzindədir.

* * *

"Fiorentina" Duşan Vlahoviçi 60 milyon avroya satmağa hazırdır.

Lakin onunla maraqlanan klubların sayı artsa da, adları KİV-lərə açıqlanmır. "Bənövşəyilər" bu taransfer müqabilində klubun maliyyə durumunu qismən də olsa düzəltməyə çalışır.

* * *

"Milan"ın qapıçısı Canluici Donnarumma "Yuventus"a keçə bilər.

Artıq 22 yaşlı oyunçunun meneceri Mino Rayola turinlilərin idman direktoru Fabio Paratiçi ilə görüşüb, mümkün keçidi müzakirə edib. İtaliya millisinin üzvü mövsümün sonuna qədər olan müqavilə müddətini yeniləmək istəmir. Səbəb "Milan" illik 8 milyon avroluq maaşdan artığını vermək gücündə olmamasıdır. Qapıçı isə 12 milyon tələb edir. Bu məbləğ isə ona "Yuventus" tərəfindən təklif olunur.

Qeyd edək ki, Canluici Donnarumma 2015-ci ildən "Milan"ın formasını geyinir.

* * *

Donnarumanın klubda qalmaması ilə əlaqədar "Milan" yeni qapıçı axtarışına çıxıb. "Rossonyeri"lər "Roma"nın qapıçısı Antonin Miranteni hədəf seçib. 37 yaşlı futbolçunun "Roma" klubu ilə müqaviləsi bu yay başa çatır. "Roma" yaxın müddətdə veteran qapaçı ilə yeni müqavilənin detallarını müzakirə etmək niyyətindədir.

## Fransa

UEFA Çempionlar Liqasının yarımfinalına vəsiqə əldə edən PSJ "Liverpul"un misirli futbolçusu Məhəmməd Salahla maraqlanır. Paris klubu rəsmiləri 28 yaşlı futbolçunun agenti ilə görüşərək, məsələni müzakirə ediblər. Qeyd edək ki, Salahla "Liverpul"un müqaviləsi 2023-cü ilin yayında başa çatacaq.

## Almaniya

"Liverpul"un yarımmüdafiəçisi Corcino Veynaldum "Bavariya"yaya təklif olunub. Lakin "pivəçilər" bu təklifə yayda cavab verəcək. Çünki həmin ərəfədə hollandiyalı futbolçu "Liverpul"la razılaşmanı bitirib, azad agent statusu alacaq. "Bavariya" Veynalduma böyük məbləğ xərcləməkdənsə, Münhen "Borussiya"sında çıxış edən 24 yaşlı Florian Noyhausa üstünlük verir.

* * *

"Bavariya"nın müdafiəçisi Jerom Boatenq iki klubun maraq dairəsinə düşüb. Söhbət "Barselona" və "Tottenhem"dən gedir. Boatenq yayda sərbəst agent olacaq. Münhen idman direktoru Hasan Salihamidziç 32 yaşlı futbolçu ilə yenidən müqavilə bağlamayacağını təsdiqləyib.



Qeyd edək ki, Boatenq 10 il idir ki, "Bavariya"nın formasını geyinir. O, klubla birlikdə 8 dəfə Bundesliqanın, 5 dəfə Almaniya Kuboku və Superkubokunun qalibi olub. Daha sonra isə 2 dəfə Çempionlar Liqasında Avropa Superkubokunun və klublararası dünya çempionatının qalibidir.



# Dünya–idmanı

## Bir cümlə, bir xəbər

"Amazon Prime" şirkəti "Mançester Yunayted"in futbolçusu Pol Poqbanın həyatından bəhs edən filmi gələn il ictimaiyyətə təqdim edəcək.

* * *

Latviyanın paytaxtı Riqada "Politsiya", "Dauqava", "Venta" və "Yurmala" klublarında çıxış etmiş veteran futbolçu Roman Bezzubov öz avtomobilində güllələnərək qətlə yetirilib.

* * *

UEFA Çempionlar Liqası və Avropa Liqasının növbəti mövsümündə səfər qolu qaydasını ləğv etmək qərarı verilib.

* * *

"Arsenal"ın hücumçusu Pyer-Emerik Obameyanq vətəni Qabondan qayıtdıqdan sonra malyariya xəstəliyinə yoluxub.

* * *

İtaliya A seriyasında çıxış edən "Napoli"nin baş məşqçisi Cennaro Qattuzo növbəti mövsümdən etibarən "Fiorentina"nın uğurları üçün çalışacaq.

* * *

Ukraynada Tokio-2020-yə vəsiqə əldə edən idmançılara və onların məşqçilərinə COVİD-19 əleyhinə "Corona Vac"peyvəndi vurulub.

* * *

Kanadada keçirilməsi nəzərdə tutulan kerlinq üzrə dünya çempionatı yoluxma səbəbindən təxirə salınıb.

İrlandiyalı Konor Makqreqorla amerikalı Dastin Porye arasında üçüncü döyüş iyulun 10-da keçiriləcək.

* * *

Keçmiş dünya çempionu Oskar De La Hoya UFC çempionu Tayron Vudli ilə döyüşmək istəyir.

* * *

NBA-da çıxış edən "Bruklin Nets" komandasının 35 yaşlı basketbolçusu Lamarkus Oldric ürəyində baş verən ağrılara görə karyerasını bitirib.

* * *

Solt-Leyk Siti-2002 Qış Olimpiya oyunlarının xizəksürmə üzrə norveçli qalibi Anders Euklann 48 yaşında 700 km, 500 m məsafəni 41 saata qət edərək, yeni dünya rekordu müəyyənləşdirib.

* * *

NHL-də çıxış edən "Boston Bryuins"in qapıçısı "Nyu-York Aylenders"lə matçda 22 dəfə qapını toxunulmaz saxlayaraq, 300-cü qələbə ilə komandasının tarixinə düşüb.

* * *

Almaniyalı pilot Niko Hülkenberq yeni mövsümdən etibarən "Aston Martin" komandasının ehtiyat sürücüsü olacaq.

## *Suya düzgün tullanmayan idmançı komaya düşdü*

Moskvada keçirilən yarış zamanı suya tullanma hərəkətini düzgün yerinə yetirməyən 12 yaşlı Artyomiy komadan ayılıb. Kazandan olan gənc idmançı həyatına əvvəlki kimi davam edə bilməsə də, hazırda zamana uyğunlaşmağa çalışır. Artyomiy artıq həkimlərin nə dediklərini anlayır, əl-ayağını hərəkət etdirə bilir.



Qeyd edək ki, yarış CSKA-nın idman kompleksinin hovuzunda baş verib. Cəhdlərin birində idmançı büdrəyərək, başı ilə beton hündürlüyə çırpılıb. İdmançı ağır xəsarətlərlə uşaq xəstəxanasına çatdırılıb.




*Üfüqi*

**2.** İtaliya A seriyasında çıxış edən klub. **4.** İngiltərədə yaranan və Hindistanda məşhurlaşan idman növü. **5.** İdman cəmiyyəti, müxtəlif ölkələrdə futbol və idman klubu. **10.** İdman qurğusu. **12.** Atletika və üzgüçülükdə idman aləti. **14.** İdman obyektlərində xüsusi sıralanmış yer.

*Şaquli*

**1.** Futbol üzrə Avropa və Millətlər Liqasında çıxış edən milli komanda. **3.** Cənubi Amerikada futbol çempionatı. **6.** Fransa çempionatında çıxış edən knyazlıq komandası. **7.** Taekvondo üzrə Olimpiya çempionumuz....İsayev. **8.** Qaçışçı. **9.** Almaniya milli komandasının və "Bavariya" klubunun müdafiəçisi. **11.** Atletika yarışlarında növ.**13.** Futbol üzrə İran çempionatında çıxış edən Cənubi Azərbaycan təmsilçisi. **15.** İdman aləti, yelləncək.

## İbrahimoviç futboldan kənarlaşdırıla bilər

Zlatan İbrahimoviç FİFA və UEFA tərəfindən müəyyən olunmuş qaydaları pozduğuna görə uzun müddət futboldan kənarlaşdırıla bilər. İsveç millisi və "Milan"ın hücumçusuna məxsus "Unknown AB" şirkəti "Bethard" bukmeker kontorunda 10%-lik paya sahibdir.

Qaydalara əsasən, bukmeker kontorunda hər hansı bir marağı olan futbolçu FİFA və UEFA bayrağı altında keçirilən yarışlarda iştirak edə bilməz. Qaydanı pozanları isə 100 min avroyadək cərimə və ya üç ilədək futboldan uzaqlaşdırılma gözləyir.

İsveç Futbol Federasiyası məsələ barəsində artıq bir neçə ildir məlumatlı olduğunu bildirib. FİFA və UEFA isə hələ ki vəziyyəti şərh etməkdən imtina edib.




olimpnews.az - sizin saytınız




## Koronavirusa görə meydana 7 futbolçu ilə çıxdılar



Kolumbiyanın "Rioneqro Aqilas" klubu futbolçularının koronavirusa yoluxması səbəbilə "Boyako Çiko" komandasına qarşı çempionat oyununa tam heyətlə qatıla bilməyib.

Komandada koronavirusa 21 yoluxma qeydə alınıb ki, bunlardan da 16-sı futbolçular olub. Bundan əlavə zədələr səbəbiylə daha altı oyunçu komanda düşərgəsindən kənar qalıb. Klub həmçinin gənc oyunçularını da heyətə qata bilməyib. "Rioneqro Aguilas" ölkənin futbol federasiyasına oyunu təxirə salmaq istəyi ilə müraciət etsə də, müsbət cavab almayıb.

Nəticədə komanda "Boyaka Çiko" ilə qarşılaşmaya yeddi futbolçu ilə çıxıb. Onlardan ikisi qapıçı olub. Yuxarı liqada qalmaq uğrunda mübarizə aparan komanda meydana iki banerlə çıxıb: ədalətli oyuna çağırış edilib, insan həyatının hər şeydən üstün olduğu vurğulanıb.

İlk hissədə oyunda hesab açılmayıb. 57-ci dəqiqədə "Boyako Çiko" hesabı açıb, daha sonra iki dəfə də fərqlənib. Bundan sonra "Rioneqro"nun heyətində daha bir futbolçu zədələnib və oyun vaxtından əvvəl başa çatıb.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19